# AZƏRBAYCAN TƏBİƏTİNİN SAFLIĞI KEŞİYİNDƏ MƏTİN MÜBARİZ

**65 ildən çox zaman kəsiyində dəfələrlə şahid olmuşam: Azərbaycanın hər bölgəsində, məktəb, təhsil-tərbiyə ocaqlarında, bir sözlə, geniş miqyasda ictimaiyyətlə təbiətin qorunması, torpaqların, suların, meşəliklərin mühafizəsi, əhalinin hər yerdə sağlam yaşamasından söhbət gedəndə, ən əvvəl mərhum akademik Həsən Əliyevin adı çəkilmişdir. Zaman-zaman Azərbaycanın təbii saflığı, gözəlliyi, yeraltı-yerüstü sərvətlərinin qorunması qayğısını çəkən alim, ziyalı, yaradıcı mütəfəkkirlərimiz az olmamışdır. Lakin akademik Həsən Əliyev heç kimə bənzəməzdi. Bütün səviyyələrdə, istər keçmiş Sovetlər birliyinin böyük səlahiyyətli rəsmi idarələrində, konfrans-simpoziumlarda, xarici ölkələrdə keçirilən Beynəlxalq elmi yığıncaqlarda, istərsə də Azərbaycanın partiya, dövlət idarələri qarşısında o, təbiətin qorunması probleminə aid öz sözlərini hər yerdə, heç kimə müyəssər olmayan böyük cəsarətlə bəyan etmişdir.**



Doğma Azərbaycanın el-obasına, danışıq-davranış incəliklərinə, zəngin iqlim şəraitinə yetərincə bələd olan Həsən müəllim, hər yerdə, əsl mənada, təbiət-xalq vəhdətini əxz edən loğman, müəllim, yol göstərən, üzügülər, mehriban məsləhətçi kimi böyük, ağsaqqal, doğma adam sayılmışdır. O, yaşının ahıl çağında da, sevdiyi fotoaparatla dağı, aranı, dərəni, düzü, əkin sahələrini, su bərələrini, istidə-soyuqda, küləkdə, çən-dumanda gəzər, qeydlər aparardı və öz qiymətli nəticə, qərar, tələb-təkliflərini təxirə salmadan lazımi ünvanlara özü çatdırardı.

Akademik Həsən Əlirza oğlu Əliyev Azərbaycanda xalqın-əhalinin bütün zümrələrə aid nümayəndələri qarşısında böyük nüfuz qazanmışdır. Onu, sanki bütün yaş mərhələlərinə aid adamlar başa düşür, inanır və hörmətini saxlayardılar. Təsadüfi deyildir ki, Azərbaycanda heç bir elmi təşkilat-cəmiyyət, Həsən müəllim tərəfindən yaradılan "Azərbaycan Təbiəti Mühafizə Cəmiyyəti" qədər ölkədə geniş fəaliyyət göstərməmişdir. Mən əminəm ki, Həsən müəllimə ümumxalq inamı, sevgisi sayəsində həmin cəmiyyətdə 1 milyon altı yüz min məktəbli, pioner, kolxozçu, meşə işçiləri və başqa xidmətlərə aid üzvlər olmuşdur. Akademik Həsən Əliyevin cəfakeş, vəfalı təbiətsevərliyi, demək olar ki, vaxtilə keçmiş SSRİ məkanında olan respublikalarda da tanınmışdır. Olduqca maraqlıdır ki, son 17-18 ildə Rusiya, Ukrayna, Belarusiya, Qazaxıstan, İran İslam Respublikası, Türkiyə, İsveçrə və başqa ölkələrdə ekologiya, Dünya okeanı, növ müxtəlifliyinin qorunması və başqa Beynəlxalq elmi konfranslarda yaşlı nəslə mənsub olan mütəxəssislərin, mərhum Həsən Əliyevlə maraqlandığının şahidi olmuşam.

Mən ali məktəbi Gəncədə qurtarıb, cəmi 20 gündən sonra, 1955-ci ilin avqustunda Bakıda aspiranturaya qəbul olub, Moskvaya göndərildim. 1959-cu ildə qayıtdım və demək olar ki, Bakıda, Elmlər Akademiyasında, öz institutumda da çox az adam tanıyırdım. O vaxt, indiki Torpaqşünaslıq və Aqrokimya İnstitutunun binasında 4 institut yerləşirdi. Bizim Zoologiya İnstitutu 4-cü, Torpaqşünaslıq isə 3-cü mərtəbədə idi. Moskvadan təzəcə gəlmişdim. Bir gün səhər, ümumi pilləkənlərlə qalxanda, səliqə-sahmanlı görkəmi olan adamla salamlaşdım. O, salam verdi və pilləkəndə ayaq saxlayıb soruşdu: "Sən hansı institutdansan, mən səni görməmişəm, təzə işçisən?" Cavab verdim, ixtisasımı bilib dedi: "Çox yaxşı iş üzrə mütəxəssissən, suyumuz azdır, mən də maraqlanıram. Şadam tanış olduq, sən mənə lazım olacaqsan, gördüyün işlərin bəzi nəticələri ilə tanış olmaq hər ikimiz üçün faydalı olacaq". Həqiqətən də mənim Həsən müəllimlə 35 ildən çox, hər il dəfələrlə görüşüm olmuş və hər dəfə sularımız, Xəzər dənizi, bulaq-qaynaqlarımız, mineral su mənbələrimiz, kəhrizlərimiz, xüsusilə dağ göllərimiz barədə söhbətlərimiz olmuşdur. Onu ən çox Kür çayı ilə Arazın, bizim tədqiqatların metodlarına əsasən çirklənmə dərəcəsi, onların qonşu respublikalarda zəhərlənməsi məsələləri maraqlandırırdı. Kür çayının öz ərazimizdə - Qazaxdan Neftçalaya kimi rayon mərkəzləri, Gəncə, Mingəçevir və başqa şəhərlərin çirkabı ilə çirklənməsini böyük nigarançılıqla dinləyərdi. Mingəçevir İstilik Elektrik Stansiyası yaradılanda, layihədə 87-90 faiz qazdan istifadə olunması nəzərdə tutulmuşdu. Lakin 80-ci illərdə Sovetlər, qazı Ermənistan-Gürcüstana lazımınca vermək üçün Mingəçevir İES-da, çox ucuz, ətraf mühit üçün təhlükəli, tərkibində 4 faizə qədər kükürd olan, heç kim tərəfindən alınıb istifadə edilməyən, Qazaxıstanın "Tengiz" yatağından alınan yanacaq, on min tonlarla Azərbaycana göndərildi. Bizim tədqiqatlardan aydın oldu ki, həmin yanacaqdan istifadə zamanı ərazidə yaşayan hər adam başına ilə 1,5 ton qurum yaranır. Həmin nəticəni Həsən müəllimə təqdim etdik. Onun böyük zəhməti, cəsarətli tələbi, nüfuzu sayəsində İES boruları 35-40 m hündürləşdirildi, kükürdlü yanacaqdan istifadə qadağan olundu.

1972-ci ilin avqustunda mənim xaricdən qonaqlarım gəlmişdi. Onları Göygölə apardım. Sahil ərazilərdə heyvan başları, dəriləri, sümüklər, meyvə-tərəvəz artıqları və b. zibil-tullantılarsız təmiz yer tapa bilmədik, hər yan səs-küy, tüstü, bir sözlə, xəcalətlə geri qayıtdıq. Mən dəqiq bilirdim ki, meromektik göl olan Göygöldə suyun üst, 23-25 metrə bərabər olan təbəqəsi oksigen qazı ilə təmin vəziyyətdədir. Əgər sulara əlavə üzvi maddə qarışarsa, yəni, yağış-yağmurlu Göygöl ərazisindəki zibil-tullantı aramsız yuyulub gölə axarsa, Göygölün 55-60 metr dərinliyində əmələ gələn, canlı aləm üçün kəskin zəhər olan hidrogen-sulfid qazı ($H_2S$) çoxalıb, üst - oksigen olan təbəqəyə qalxacaq, Göygöldə olan bütün canlı məxluq məhv olacaq. Havaya təbəxxür edən zəhərli qaz ətraf meşəlikləri qurudacaq və s. Yaranmış təhlükəli, müşkül vəziyyəti yazılı halda Həsən müəllimə təqdim etdik. Qısa vaxtda Göygöl ərazisi çəpərə alındı, çirklənmə hallarına son qoyuldu və göllərimizin sonası, rəhmətlik Həsən müəllimin qayğısı sayəsində, Ulu Nizami dövründəki görkəmini saxlaya bildi.

Sovetlər birliyi dövründə bütün respublikalarda su anbarlarının yaradılmasına yalnız Moskvadan icazə verilərdi. Gələcəkdə, su altında qalacaq ərazilər SSRİ Su Təsərrüfatı Nazirliyinin xüsusi ekspedisiyası tərəfindən nəzərdən keçirilib qərarlar verilərdi. Ona görə də, əksər hallarda su anbarı yaradılacaq respublikanın rəyi, torpaq, meşə və hər barədə qiymətli sayılan ərazinin qorunması, əbəs yerə əlavə torpaq itkisinə yol verməmək və s. tədbirlərin görülməsi nəzərə alınmırdı. Məsələn, Kür-Bakı kəməri layihəsində bir qədər ucuz olsun deyə (18-19 km qısa), Arazın Ermənistanda zəhərlənən suyunun Kürə qarışan yerindən yuxarı tərəf yox, aşağıda yerləşən Talışkənd təsdiqlənmişdir. Buna baxmayaraq, Həsən müəllimin cəsarətli, əsaslandırılan təkidli tələbləri sayəsində, ilk dəfə olaraq 1978-ci ildə, SSRİ və İran şahı dövlətinin razılığına əsasən, gələcəkdə Araz çayı məcrasında yaradılması nəzərdə tutulan Xudafərin və Qız qalası su anbarlarının subasar sahələrinin proqnozu — ekoloji aqibəti, Azərbaycan alim-mütəxəssisləri, o cümlədən də bu sətirlərin müəllifinin iştirakı ilə başa çatdırılan ekspedisiya-kəşfiyyat ilə əsaslandırılmışdır. Azərbaycanda olan milli mütəxəssislərin ikinci, elmi-praktiki baxımdan əsaslandırılan və yuxarılar tərəfindən qəbul olunan hesabat, ölkəmizdə sututumu və sahəsinə görə ikinci sayılan Şəmkir su anbarına aid edilmişdir ki, bu qiymətli nailiyyət, yenə də Həsən müəllimin səyi, rəhbərliyi ilə mümkün olmuşdur.

Həsən müəllimin insanlara yardımı, köməkliklər göstərməsi, səxavəti, qayğıkeşliyi ölçüyəgəlməz dərəcədə geniş olmuşdur. Böyük, xoşniyyətli ürək sahibi olan Həsən müəllimin, doğma vətənimizin təbiəti ilə yanaşı, Nizamidən üzü bəri, dünya mədəniyyəti qarşısında layiqli yer tutan poeziyamız qarşısında da xidmətləri unudulmazdır. Bəli, mən bunu böyük razılıqla etiraf edirəm: Çoxları bilmir ki, Azərbaycanın Vətəndaşlıq Simvolu, bənzərsiz söz Ustadı, Vətən Qayasında mamır olmaq arzusu ilə, əsl Vətən oğlu haqqı qazanan, sevimli Məmməd Arazın müşkül vaxtında ona əl uzadıb bir çox qayğılarını azaltmışdır!

Akademik Həsən Əliyevin Azərbaycanın təbiəti, xalqı qarşısında, elmin-tərəqqinin inkişafında, gənc nəslin təbiətsevərliyə yiyələnməsi, vətənpərvərlik, vətəndaşlıq ruhunda böyüməsində böyük xidmətləri vardır, onun ideya-tövsiyələrindən bu gün də istifadə olunur. Həsən müəllimin əziz xatirəsi, Təbiətimiz — Vətənin saflığı üçün xidmətləri unudulmayacaq.

**Akademik Məmməd SALMANOV.**